# "YADA DÜŞDÜ"

**Bugünlərdə hər sayını maraqla izlədiyim və məni daha çox nostalji hisslərlə kökləyən "Yada düşdü"nün növbəti sayı işıq üzü görüb. Əvvəlki saylarında olduğu kimi, jurnalın bu sayında da oxucuları öz aurasına ala biləcək, xatirələr qanadında uzaq ellərə aparacaq və həm də düşünməyə məcbur edəcək bir-birindən maraqlı imzalar və yazılar öz qapısını mənim üzümə açdı...**

Bəli, böyük həvəslə öncə gözdən keçirdiyim jurnalın bu sayı üz qabığındakı körpə təbəssümü ilə adama çox şey deyir. Bu şəkilə baxanda dünyanın bütün halallığı, paklığı, səmimiyyəti və saflığı istər-istəməz par-par parıldayan yağış damcısı kimi adamın ruhunu oxşayır. Düşünürsən ki, bu təbəssüm, bu körpə baxışı dünyanın bəlkə də xilasıdı. Amma neyləyək ki, biz bu paklığı, bu baxışı ona layiq səviyyədə qoruya bilmirik. Əksinə, sözümüzlə, işimizlə, davranışımızla onu çirkaba bulayır, bəzən də onu göz yaşında boğuruq...

Hə, jurnalın bu sayında da təsisçi şairə Nəzakət xanım qızlara ünvanladığı şeirlər oxucuları salamlayır. Həmin şeirdə deyilir:

**Doğular bu yurda nur, işıq kimi,**
**Bir hala ocağa yaraşıq kimi.**
**Küsdürsən, ağlayar o, uşaq kimi,**
**Çeşmədən, bulaqdan durudu qızlar.**

Məncə uşaq təbəssümündən sonra oxunan bu şeir həmin o nostalji hissləri bir az da sarı sim üstündə kökləyir, bir az da adamı dünənə qaytarır.

Jurnalın bizə təqdim olunan bu sayında ilk yazı Azərbaycanı dünyaya tanıdan sonuncu möhtəşəm oyunlarla bağlıdır. Bizim uğurlarımızı və sevincimizi əks həmin yazı və fotolar artıq tarixə çevrilmiş anları yenidən göz önünə gətirir. Müəllifi Zöhrə Fərəcova olan bu yazı yaddaşımızı bir də təzələyir. Jurnalda həmçinin millət vəkili, "Əməkdar jurnalist", Dövlət Mükafatı laureatı Elmira Axundovanın Ulu Öndərimizlə bağlı xatirələri yer alıb. Burada həmçinin bizim nəslin dillər əzbəri olan Musa Yaqubun "Öyrətmə özünə öyrətmə məni" şeiri necə deyərlər yerinə düşür. Şəxsən bu şeir o illərin gəncliyinin bir növü monoloqudur.




"Yada düşdü"nün bu sayında Cabbar Qaryağdıoğlunun 150 illiyi ilə bağlı Zöhrə Fərəcovanın yazısı, xalq şairi, ustad Zəlimxan Yaqubun Mirzə İbrahimovla bağlı xatirələri, mərhum həmkarımız Vəsilə Usbova ilə bağlı Şəfəq Nasirin "Qatarından ayrılan durna" yazısı çox böyük maraqla oxunur. Ümumiyyətlə jurnalın bu sayında Camal Zeynaloğlunun, Salatın Əhmədlinin, İradə Sarıyevanın yazıları, çox hörmətli Qəzənfər Paşayevin mərhum Rasim Kərimli ilə bağlı xatirəsi və ümumiyyətlə digər bir-birindən diqqətçəkən nostalji duyğular öz oxucusunu gözləyir.

**Poeziyasevənlər jurnalın bu sayında Əkbər Qoşalının, həmçinin redaksiyanın poçtuna ünvanlanmış Şah Qəbəlinin şeirlərini mütaliə edə bilərlər. Sonda onu demək istərdim ki, "Yada düşdü" bu dəfə də xatirələri təzələyir, bu dəfə də ruhən bizlə olanları gündəmə gətirərək yadımıza salıbdı. Bu savab işin sahiblərinə, yəni jurnalın yaradıcı kollektivinə uğurlar diləyirəm.**

**Əbülfət MƏDƏTOĞLU**